


# Qarabağda ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti:

# Xocalı soyqırımı

**Əfqan Vəliyev**
**Qərbi Azərbaycan Ziyalılar Şurasının üzvü**

***Giriş:Xocalı ermənilərin azərbaycanlılara qarşı XX yüzilin ən qanlı soyqırım hadisəsini törətdiyi yerdir. Azərbaycan torpaqları müasir sivilizasiyanın inkişafa başladığı ən qədim yaşayış məskənidir. Xocalı, Azərbaycan tarixinin müxtəlif dövrlərinə aid maddi-mədəni abidələrlə zəngin olan ərazilərindən biridir. Qədim dövr Azərbaycan tarixinin öyrənilməsində Xocalı maddi-mədəni irsinin özünəməxsus yeri vardır. Yerli və xarici tədqiqatçılar tərəfindən Azərbaycanda tarixi-memarlıq abidələrinin əsas məskəni kimi tanının Xocalının Azərbaycan tarixi və mədəniyyətinin inkişafında mühüm rolu var. Bölgənin maddi-mədəni irsi, milli kimliyin, milli şüurun, milli düşüncənin o cümlədən dövlətçilik ənənələrinin yaranmasını təmin edən faktorlar arasında yer alır.***

Ermənilərin ərazi iddiaları ilə 1988-ci ildə başlayan Ermənistan-Azərbaycan arasındakı Qarabağ münaqişəsi dövründə yaxın tarixin ən faciəli soyqırımı əsrlər boyu azərbaycanlıların yaşadığı Xocalıda baş verdi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan ordusu Xankəndi şəhərində yerləşdirilən keçmiş SSRİ-nin 366-cı motoatıcı hərbi alayının köməyi ilə Xocalı şəhərinə hücum etdi. Uzun müddətdir mühasirədə olan şəhər ağır texnikası artilleriyası olmayan az sayda əsgər və milis qüvvələri ilə müdafiə olunurdu. Əvvəlcə, şəhər dörd tərəfdən mühasirəyə alınmış, sonra isə Xocalıya artilleriya və ağır hərbi texnikadan güclü və aramsız atəş açılmış, az bir vaxt ərzində şəhərdə yanğın baş vermiş, şəhər tamamilə alova bürünmüşdü. Barrikada və müdafiə istehkamları top və artilleriya atəşi ilə dağıdılan şəhər erməni hücumuna məruz qalıb. Əhalinin tərk edə bilmədiyi şəhərə girən Ermənistan ordusu mülkü azərbaycanlılara qarşı tarixin ən qanlı soyqırımını həyata keçirmişdir. Fevralın 26-sı səhər saat 5-ə kimi şəhər erməni işğalçıları tərəfindən işğala məruz qalıb. Qadın, uşaq və qocalar rəhm edilmədən amansızca öldürülüb. Qarlı qış günündə canlarını qurtarmaq üçün dağlara və meşələrə qaçan əhali Ermənistan ordusu əsgərləri tərəfindən təqib edilib, ağlasığmaz işgəncələrlə barbarcasına qətl edilib. Minlərcə yaşlı, uşaq və qadın əsr götürülüb. Əsrlərin bir çoxu ağır işgəncələrə tab gətirə bilməyib vəfat edib. Bir qismi xəstə və əlil vəziyyətdə geri qaytarılsa da bir çoxunun aqibəti hələ də məlum deyil.

2020-ci il sentyabrın 27-də Ermənistan ordusunun hücumu ilə II. Qarabağ müharibəsi başladı. Azərbaycan ordusu 44 gün davam edən tarixi Vətən müharibəsində erməni ordusunu ağır məğlubiyyətə uğradıb, torpaqlarını erməni işğalından azad etdi. Prezident, Ali Baş Komandan İlham Əliyevin komandanlığı ilə qazanılan zəfərlə Azərbaycan ordusu, təkcə Ermənistan ordusu və onun "güclü" sədlərini deyil, həmçinin Xocalı qatillərinin illərdir yaratdıqları mif, utopiya və avantürizmdən ibarət "Böyük Ermənistan" ideologiyasını darmadağın edib tarixin dərinliyinə ataraq Xocalı şəhidlərinin qisasını alıb ruhlarını da şad etdi. Dünya Azərbaycan ordusu tərəfindən azad edilən torpaqlarda əli qanlı erməni soyqırım cəlladlarına Ermənistanın qoyduğu abidələrin, dünyanın maddi-mədəni irsi hesab olunan tarixi abidələrin ermənilər tərəfindən soyqırıma məruz qaldığının şahidi oldu. Azərbaycan ordusu və onun Ali Baş Komandanı Qarabağı azad etməklə yanaşı həmçinin çoxəsrlik mənfur erməni mif və ideologiyasına da son qoydu.



Vətən müharibəsinin bitməsi ilə nəticələnən 10 Noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata uyğun olaraq Xocalı şəhəri Rusiya Sülhməramlı kontingentinin nəzarəti altında olub. 19–20 sentyabr 2023-cü ildə aparılan lokal xarakterli antiterror əməliyyatları nəticəsində Azərbaycan ordusu tərəfindən azad olunub. Yevlax rayonunda keçirilən danışıqların nəticəsində Xocalı rayonu 24 sentyabr 2023-cü ildə Azərbaycan Respublikasının nəzarətinə keçib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb. Ermənilər tərəfindən dağıdılıb xarabalığa çevrilən Xocalı Azərbaycan dövləti tərəfindən bərpa edilib və Xocalının qədim sakinləri öz yurd-yuvalarına qayıtmağa başlayıb.

Xocalının strateji mövqeyi və coğrafi əhəmiyyəti; Xocalının müharibə boyu daim erməni silahlı qüvvələrinin atəşinə və təqiblərinə məruz qalması, Ermənistan silahlı qüvvələrinin hərbi hədəfi olmasının səbəbi onun strateji mövqeyi və maddi mədəni irsi ilə əlaqədardır. Xocalı, miladdan əvvəl XIII-VII əsrlərə aid Xocalı-Gədəbəy mədəniyyət abidələri, son Tunc və ilk Dəmir dövrlərinə aid Nekropolu, Kurqançölü, eramızın IV-VII əsrlərinə aid Alban kilsələri, XIV əsrə aid Xocalıda Hacı Əli günbəzi, 1356-cı ildə inşa olunmuş dairəvi türbəsi, XVIII əsrdə Qarabağ xanı Pənahəli xan tərəfindən Qarqar çayının sağ və sol sahillərində inşa etdirilən Əsgəran qalası ilə dünya tarixi-mədəni irsində yerini alıb. Çar Rusiyası dövründə ərazidə misəritmə kürələri, mis və tunc məmulatları hazırlayan emalatxanaların qalıqları, çaxmaq daşından, alət və silahların istehsal tullantıları aşkar edilib. Rus tədqiqatçı, arxeoloq A.A. İvanovski 1893-1896 illərdə Xocalıda və Göyçə gölü ətrafında arxeoloji qazıntılar aparmış və oradakı Oğuz qəbirlərindən çıxan əşyaların Xocalıda aşkar olunan əşyalarla eyni olduğunu qeyd etmişdir[1]. Bu da bu ərazilərdə qədim dövrlərdən bəri azərbaycanlıların yaşadığını sübut edir. 1810-cu ildə Rusiya ilə İran arasında sülh danışıqları "Əsgəran qalası"nda aparılıb. Qarabağın ən qədim insan məskənlərindən olan Xocalı rayonu 1991-cı il noyabr ayının 26-da Əsgəran rayonu bazasında yaradılıb. Sahəsi 0,94 min kv. Km, əhalisi 11356 olan Rayon Laçın, Kəlbəcər, Ağdam, Xocavənd və Şuşa rayonları ilə qonşu idi. Rayonda 1 şəhər, 1 qəsəbə (Əsgəran), 50 kənd olub. Rayon mərkəzi Xankəndindən 10 km cənub-şərqdə yerləşən Xocalı şəhəridir. İşğala qədər rayonda 56 mədəniyyət müəssisəsi fəaliyyət göstərirdi. "Xocalının səsi" adlı rayon qəzeti 1991-ci ildən nəşr edilib. 1988-ci illərdə baş vermiş hadisələrlə əlaqədar olaraq Fərqanədən (Özbəkistan) qaçqın düşmüş 54 mesxeti türkü ailəsi, həmçinin indiki Ermənistandakı tarixi Azərbaycan torpaqlardan və Xankəndindən deportasiyaya məruz qalmış azərbaycanlıların bəziləri Xocalı şəhərində məskunlaşdı[2].

Xocalı soyqırımın səbəbi; Ermənilərin Azərbaycanın tarixi torpaqları olan İrəvan xanlığı, Göyçə, Zəngəzur və Zəngibasarda erməni dövləti qurduqları kimi, keçmiş Dağlıq Qarabağ ərazisində ikinci qondarma "erməni dövləti" dövləti qurma iddiası ilə başlayan Qarabağ münaqişəsi dövründə məkirli planlarını həyata keçirmək üçün ideoloji hədəflərlə yanaşı, siyasi və strateji əraziləri işğal etmə maraqları şüurlu və əvvəlcədən düşünülmüş Xocalı faciəsini hazırlayan səbəblər arasında aşağıdakılar da yer alır;

***Xocalının Qarabağın ən mühüm yüksəkliyindən birində, strateji baxımdan əhəmiyyətli olan Ağdam - Şuşa, Əsgəran - Xankəndi yollarının üzərində yerləşməsi;***

***Rayonun ərazisindən strateji əhəmiyyəti olan uzunluğu 32 km olan birinci kateqoriyalı şose yolu və Bakı-Xankəndi dəmir yolu keçməsi;***

***Qarabağın yeganə hava limanının Xocalı şəhərində yerləşməsi;***

***Rayon ərazisinin tarixi baxımdan zəngin qədim maddi-mədəni irsə malik olması.***

***Bu faktlar, Ermənistan hərbi-siyasi rəhbərliyinin keçmiş Dağlıq Qarabağı işğal edib orada ikinci "qondarma erməni dövləti"ni qurmaq məqsədinə nail olmaq üçün Xocalı soyqırımını əvvəldən hazırladığını göstərir.***

**(ardı gələn sayımızda)**